**Bakı şəhəri** **№ 1/36** **26 oktyabr 2015-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin və Auditin keyfiyyətinə nəzarət şöbəsinin Əsasnamələrinin və onların əməkdaşlarının vəzifə borclarının təsdiq edilməsi barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununu və "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməni rəhbər tutaraq Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər) II "Auditor fəaliyyətinin idarə olunması, tənzimlənməsi və auditin institusional potensialının gücləndirilməsi" bölməsində nəzərdə tutulan tədbirlərin və Auditorlar Palatası sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatasının strukturunun təkmilləşdirilməsi barədə" 2015-ci il 01 sentyabr tarixli 1/28 saylı sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1.Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin və Auditin keyfiyyətinə nəzarət şöbəsinin Əsasnamələri və onların əməkdaşlarının vəzifə borcları təsdiq edilsin (əlavə olunur).

2.Auditorlar Palatasının Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi M.Abbasova və Auditin keyfiyyətinə nəzarət şöbəsinin müdiri F.Məmmədova tapşırılsın ki, rəhbərlik etdikləri struktur bölmələrin əməkdaşlarının vəzifə borclarının vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün əməli tədbirlər görsünlər.

3.Bu sərəncamın, Əsasnamələrin və əməkdaşların vəzifə borclarının mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**SƏDR** **VAHİD NOVRUZOV**